from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
from json import load
from urllib2 import urlopen
def pencere():
    app=QApplication(sys.argv)
    window=QWidget()
    window.setWindowTitle('webbrowser')
    window.setGeometry(50,10,300,300)
    button=QPushButton(window)
    button.setText('Ip')
    button.move(0,10)
    #və ya button=QPushButton('start',window)
    #icon tətbiqi
    def oclock():
        label=QLabel(window)
        label.move(50,50)
        ip = load(urlopen('http://httpbin.org/ip'))['origin']
        label.setText(u'IP ünvanınız : '+ip)
        label.show()
    button.setIcon(QIcon('icon.png'))
    button.setIconSize(QSize(30,30))
    button.clicked.connect(oclock)
    window.show()
    sys.exit(app.exec_())
if __name__ == '__main__':
    pencere()
```

Yeni əlavəmiz

Ölçüsünü dəyişdikcə düymənin ölçüsü də dəyişir.

setCheckable() metodu

Metod iki parametr alır; True və False.Metod vasitəsilə düyməni aktiv və passiv hala gətirmək olur.

Metoddan istifadə etmədikdə düymə setCheckable(True) ifadəsi altında çalışır.

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
def pencere():
    app=QApplication(sys.argv)
    window=QWidget()
    window.setWindowTitle('webbrowser')
    window.setGeometry(50,10,300,300)
    button=QPushButton(window)
    button.setText('Time')
    button.move(0,10)
    #və ya button=QPushButton('start',window)
    button.setIcon(QIcon('icon.png'))
    button.setEnabled(False)  #düyməni passiv hala gətiririk
    window.show()
    sys.exit(app.exec_())
if __name__ == '__main__':
    pencere()
```

Button -a dair daha bir misal yazaq

```
# -*-coding: utf-8 -*-
import pygame.camera
import pygame.image
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
def pencere():
    app=QApplication(sys.argv)
    window=QWidget()
    window.setWindowTitle('webbrowser')
    window.setGeometry(50,10,300,300)
    def camera():
        pygame.camera.init()
        cam = pygame.camera.Camera(pygame.camera.list_cameras()[0])
```

pygame modulu

```
        cam.start()
        img = cam.get_image()
        pygame.image.save(img, 'foto.jpeg')
        pygame.camera.quit()
    button=QPushButton(window)
    button.setText('Time')
    button.move(0,10)
    #və ya button=QPushButton('start',window)
    button.setIcon(QIcon('icon.png'))
    button.clicked.connect(camera)
    window.show()
    sys.exit(app.exec_())
if __name__ == '__main__':
    pencere()
```

Fayl tipini png,bmp və s olaraq dəyişə bilərsiniz

əgər pygame modulu xətası alırsanızsa o zaman modul sistemdə yüklü deyil yükləmək üçün(Gnu/Linux) $ **sudo apt-get install python-pygame** yazaraq yükləyə bilərsiniz.

Pəncərəyə bir progresbar əlavə edək.Bunun üçün QProgressBar modulundan istifadə edəcəyik.

Kodlarımıza əlavələrimizi edək

```
def camera():
        pygame.camera.init()
        cam = pygame.camera.Camera(pygame.camera.list_cameras()[0])
        cam.start()
        img = cam.get_image()
        pygame.image.save(img, 'foto.jpeg')
        pygame.camera.quit()
        basla=0
        print'please wait....'
        while basla<100:
            basla += 0.0001
            progres.setValue(basla)
        print 'completed'
```

Düymənin çağırdığı camera funksiyasına bəzi əlavələrimizi etdik.

Bütünlükdə kodlarımız

```
# -*-coding: utf-8 -*-
import pygame.camera
import pygame.image
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
def pencere():
    app=QApplication(sys.argv)
    window=QWidget()
    window.setWindowTitle('QPushButton')
    window.setGeometry(400,300,300,300)
    progres=QProgressBar(window)
    progres.setGeometry(80,40,130,15)
    def camera():
        pygame.camera.init()
        cam = pygame.camera.Camera(pygame.camera.list_cameras()[0])
        cam.start()
        img = cam.get_image()
        pygame.image.save(img, 'foto.jpeg')
        pygame.camera.quit()
        basla=0
        print'please wait....'
        while basla<100:
            basla += 0.0001
            progres.setValue(basla)
        print 'completed'
    button=QPushButton(window)
    button.setText('Capture')
    button.move(100,80)
    #və ya button=QPushButton('start',window)
    button.setIcon(QIcon('icon.png'))
    button.clicked.connect(camera)
    window.show()
    sys.exit(app.exec_())
if __name__ == '__main__':
    pencere()
```

ProgressBar pəncərəyə tətbiq edirik

Başlanğıc 0% üzrə

Həcmini100% üzrə tənzimləyə bilərsiniz.

Vaxtı millis ilə tənzimləyə bilərsiniz

ekran görüntüsü



Kodlarımıza izahat verək.Deməli basla=0 yazdığımız ifadə progress qutusunun ədəd faizini tənzimləmək üçündür,15 -əgər yazsaq qutuda(progress) 15% -ifadəsini görəcəyik.while basla<100: -ifadəsi əgər basla ifadəsinə verdiyimiz say 100-dən kiçikdirsə basla üzərinə 100 ü əlavə et əmrini veririk.Yəni basla+100=basla(0)

0.0001 -sayı isə vaxtı tənzimləyir.Yəni 100 -ü millisaniyə ilə tənzimləyirik,əgər daha bir sıfr artırsaq progress qutusunun daha çox vaxta bittiyinin şahidi olacağıq.
Digər print funksiyaları isə nəyi ifadə etdiyi bizə məlumdur.

setCheckable metodu

Metod True və False parametrlərini alır.əgər True versək metod düymənin basıldığını təyin edib istifadəçi tərəfindən verilən funksiyanı yerinə yetirər.

Misal olaraq

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
def pencere():
    app=QApplication(sys.argv)
    window=QWidget()
    window.setWindowTitle('QPushButton')
    window.setGeometry(400,300,300,300)
    def proces():
        if button.isChecked():
            print'button pressed'
            progres=QProgressBar(window)
            progres.move(120,5)
            progres.show()
        else:
            print'button default'
            progres=QProgressBar(window)
            progres.move(120,5)
            i=0
            while i<100:
                i+=0.00001
                progres.setValue(i)
            progres.show()
    button=QPushButton(window)
    button.setText('Home')
    button.setCheckable(True)
    button.move(0,30)
    button.clicked.connect(proces)
    window.show()
    sys.exit(app.exec_())
if __name__ == '__main__':
    pencere()
```

setEnabled() metodu
Metod iki parametr alır.True və False.Düyməni aktiv halda tutmaq üçün metodu True parametri verilir.Passiv hal üçün isə False.

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
def pencere():
    app=QApplication(sys.argv)
    window=QWidget()
    window.setWindowTitle('QPushButton')
    window.setGeometry(400,300,300,300)
    button=QPushButton(window)
    button.setText('Home')
    button.setEnabled(False)
    button.move(0,30)
    window.show()
    sys.exit(app.exec_())
if __name__ == '__main__':
    pencere()
```

Düymə daxilində 'Drop down' menu

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
def pencere():
    app=QApplication(sys.argv)
    window=QWidget()
    window.setWindowTitle('QPushButton')
    window.setGeometry(400,300,300,300)
    button=QPushButton(window)
    button.setText(u'Daxil ol')
    button.move(0,30)
    def show():
        print'hello guys!'
        window.close()
    menu=QMenu()
```

Proqramdan çıxış üçün

```
    menu_1=menu.addAction('Open')
    menu_2=menu.addAction('Quit')
    menu_3=menu.addAction('Save')
    menu1=QMenu()
    menu2=menu1.addAction('Save as')
    menu_2.triggered.connect(show)
    menu_3.setMenu(menu1)
    button.setMenu(menu)
    window.show()
    sys.exit(app.exec_())
if __name__ == '__main__':
    pencere()
```

show funksiyasını çağırmaq üçün

QMenu klasına(sinif) dərindən, klas bəhsində öyrənəcəyimiz üçün burada izah etməyə çalışmayacam.Sadəcə olaraq button(düymə) daxilində bu menuları tətbiq etmək eləcədə bunları digər funksiyalarla əlaqələndirib bir əməliyyatı yerinə yetirməyi tətbiq edə bilərik.

Siniflər(Class)

Bura qədər sadəcə olaraq kodlarımızı funksiya(def) daxilində yazırdıq.Bundan başqa pythondan bilirikki class-siniflər də mövcuddur.Və kodlarımızı siniflər daxilinə tətbiq edərək istifadəsini daha rahat şəkildə təmin edə bilərik.Siniflər daxilində kodların toplanması,bizə kodlarımızı həm rahat,həmdə dağınıqlığı aradan qaldırılmasına kömək edir.Ciddi bir fərq olmasada class daxilinə kodların toplanması daha məqsədəuyğundur.

İlk klas daxilinə kodlarımızı tətbiq edək
Bunun üçün biz class xxx() -kimi ifadə yazacağıq.Bundan başqa biz ana pəncərəni bir dəyişənə atıb və o dəyişənə metodları tətbiq edirdiksə klaslarda isə ardıq sadəcə self ifadəsini istifadə edərək yerinə yetirəcəyik.

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self):
        self.gui()
    def gui(self):
        self.pencere=QWidget()
        self.pencere.setWindowTitle('hello')
        self.pencere.setWindowIcon(QIcon('icon.png'))
        self.pencere.show()
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
    app.exec_()
```

Yuxarıdakı kodlarımızda class daxilində -class window(QWidget) – ifadəsini yazdıq.Biz mötərizə daxilində Qwidget qeyd etməyimin səbəbi ümumi kod bloku Qwidget üzərində başladığını tənzimləyirəm.Və ya QDialog QMainWindow və s olaraq klasları əvəz edə bilərsiniz.Biz yuxarıda qeyd etdiyim klaslara keçmədiyim üçün hal-hazırda QVidget üçün bunu tətbiq etdim.Bir klas üzərində öyrənməyiniz,digərlərinin istifadəsinə zəmin yaradacaq.Bu metodun daha da alternativ variantı super funksiyası ilə tətbiqetmədir.super funksiyasının daxilində klas adını daxil etməklə həm klas adının təkrar-təkrar yazılmasının qarşısını alırıq,həm də ana pəncərəni bir sinif içərisində tutaraq qrafik hissəsini funksiyalardan(və ya digər siniflərdən) ayırmış oluruq.
Misal olaraq

```
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
```

Yuxarıdakı kodlarımızda   QWidget klasını çağırdıq və klası super-funksiyasına tətbiq edərək,self ifadəsi ilə əvəz etdik.Yəni

```
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.setGeometry(700,300, 800, 800)
        self.setWindowTitle('Panda')
       self.setWindowIcon(QIcon('icon.png'))
```

yazaraq pəncərəni self ifadəsilə əvəz etdik və dəfələrlə pəncərəyə tətbiq edəcəyimiz dəyişkəni tətkrar etmədik.
Davam edərək ilk sinif daxilində proqramımızı yazaq

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.resize(400, 400)
        self.setWindowTitle('Class')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.show()
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
    app.exec_()
```

kodlarımızda QWidget klasını sinif daxilə tətbiq etdik.Və klası bir dəyişənə deyil,sadəcə self ifadəsi ilə metodları tətbiq etdik.Növbəti klaslardan istifadə üçün əgər ana pəncərəyə tətbiq etsək,mötərizə daxilində sadəcə self(yəni Qwidget) yazacağıq.

Pəncərəyə button əlavə etsək

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.resize(400, 400)
        self.setWindowTitle('Class')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.button=QPushButton('Start',self)
        self.show()
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
    app.exec_()
```

Düymənin yerini ana pəncərədə olmasını təyin edirik

Və sadəcə self yazaraq düyməni ana pəncərəyə tətbiq etdik.

setToolTip() metodu

Metod,ifadələrə rəyin verilməsində istifadə olunur.İzahına çətinlik çəksəmdə aşağıdakı kodlarımızdan hər şey aydın olacaq
Misal olaraq

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.resize(400, 400)
        self.setWindowTitle('Class')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.button=QPushButton('Start',self)
        self.button.setToolTip(u'Düyməyə sıxın')
        self.show()
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
    app.exec_()
```

Mausu düyməyə yaxınlaşdırdıqda kiçik ölçülü məlumat pəncərəsi açıldı.
Html kodları ilə göstərmək istəsək
button.setToolTip(u' məlumat pəncərəsi ') kimi yaza bilərik.

Yazını dəyişmək üçün(QToolTip)

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
```

```
        self.resize(400, 400)
        self.setWindowTitle('Class')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.button=QPushButton('Start',self)
        self.button.setToolTip(u' <b>məlumat pəncərəsi</b> ')
        self.button.setStyleSheet('QToolTip { font-size: 12pt; font-family:
Sansserif; }')
        self.show()
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
    app.exec_()
```

Signal və slotlar

Signal və slotlar ayrı ayrılıqda bir funksiyadır.Signal və slotlara dair misalları bura qədər dəfələrlə kodlarımız daxilində istifadə etmişik.Model olaraq QtCore.QObject.connect(widget, QtCore.SIGNAL('signalname'), slot_function)

şəklindədir.Yuxarıda mötərizə daxilində ilk vidget -aid olduğu klas,SİGNAL adı(clicked,pressed,return_pressed və s) daha sonra çağırılan pyhon funksiyası və ya

button.clicked.connect(funksiya) kimi də yazılır.

Misal olaraq

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.setWindowTitle('Class')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.setGeometry(400,400,400,400)
        self.show()
        self.klas()
```

```
    def klas(self):
        self.entry=QLineEdit(self)
        self.entry.setToolTip(u'Adınızı yazın')
        self.entry.move(20,10)
        self.entry.show()
        self.button=QPushButton('Click',self)
        self.button.move(20,40)
        self.button.clicked.connect(self.ad)
        self.button.show()
    def ad(self):
        print u'Adınız : '+unicode(self.entry.text())
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
    app.exec_()
```

Kodlarımız arasında düşünürəm yenilik yoxdur.Çünki əvvəlki bəhslərdə button.clicked.connect(function) metodundan istifadə etmişik.Burada signal tipi clicked slot -isə function ifadələridir.Digər komanda metodu isə self.button.connect(self.button,SIGNAL('clicked()'), self.ad) yazaraq self.ad funksiyasını çağırırıq

```
self.button.connect(self.button,SIGNAL('clicked()'), self.ad)
```



Siqnal növündə clicked əvəzinə pressed -də yazsaq xətasız çalışacaq.Və ya self.button.clicked.connect(self.ad) əvəzinə self.button.pressed.connect(self.ad) yaza bilərik.

```
self.button.clicked.connect(self.ad)
```



QRadioButton klası

Ekran görünüşü



radiobutonun daimi istifadə olunan metodlarını nəzər yetirək.

1.isChecked()

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.setWindowTitle('RadioButton')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.setGeometry(400,400,400,400)
        self.palette=QPalette()
        self.palette.setColor(QPalette.Background,Qt.gray)
        self.setPalette(self.palette)
        self.radiobutton=QRadioButton('Ubuntu',self)
        self.radiobutton.move(2,2)
```

```
        self.radiobutton.clicked.connect(self.click)
        self.radiobutton1=QRadioButton('Debian',self)
        self.radiobutton1.move(2,22)
        self.radiobutton1.clicked.connect(self.click)
        self.radiobutton2=QRadioButton('Mac Os',self)
        self.radiobutton2.move(2,42)
        self.radiobutton2.clicked.connect(self.click)
        self.show()
    def click(self):
        if self.radiobutton.isChecked():
            print 'Ubuntu selected: Ubuntu'
        elif self.radiobutton1.isChecked():
            print 'Debian selected: Debian'
        elif self.radiobutton2.isChecked():
            print 'Mac Os selected: Mac Os'
        else:
            print 'please select radiobutton'
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
    app.exec_()
```

click funksiyası daxilində isChecked metodundan istifadə edərək,istifadəçinin radiobutonlara uyğun olaraq seçdikdə print funksiyası vasitəsilə mesaj verdik.

text() metodu
Misal olaraq

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.setWindowTitle('RadioButton')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.setGeometry(400,400,400,400)
```

```
        self.palette=QPalette()
        self.palette.setColor(QPalette.Background,Qt.gray)
        self.setPalette(self.palette)
        self.radiobutton=QRadioButton('Ubuntu',self)
        self.radiobutton.move(2,2)
        self.radiobutton.clicked.connect(self.click)
        self.radiobutton1=QRadioButton('Debian',self)
        self.radiobutton1.move(2,22)
        self.radiobutton1.clicked.connect(self.click)
        self.radiobutton2=QRadioButton('Mac Os',self)
        self.radiobutton2.move(2,42)
        self.radiobutton2.clicked.connect(self.click)
        self.show()
    def click(self):
        if self.radiobutton.isChecked():
            self.radiobutton.setText('Android')
            print self.radiobutton.text()
        elif self.radiobutton1.isChecked():
            print 'Debian selected: Debian'
        elif self.radiobutton2.isChecked():
            print 'Mac Os selected: Mac Os'
        else:
            print 'please select radiobutton'
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
    app.exec_()
```

text metodu

Yuxarıda kodlarımız daxilində istifadəçinin Ubuntu seçməsi ilə,daha sonra radiobuttona verdiyimiz ifadənin dəyişilməsi,daha sonra bu dəyişilən ifadənin çap olunmasını təşkil etdik.

Radiobutton- un aktiv və passiv etmək üçün setDisabled metodundan istifadə edəcəyik.parametr olaraq metod True və False alır.Sadəcə dəyişiklik olan kodları bura yazıram

```
self.radiobutton.setDisabled(True)
```

ifadəni kodlarınız daxilinə əlavə edib nəticəni test edə bilərsiniz.

setChecked metodu

metod program açılışı zamanı düymənin seçili olmasını (və ya olmamasını) təmin edə bilərik.Parametr olaraq True və False alır.

Misal olaraq

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.setWindowTitle('RadioButton')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.setGeometry(400,400,400,400)
        self.palette=QPalette()
        self.palette.setColor(QPalette.Background,Qt.gray)
        self.setPalette(self.palette)
        self.radiobutton=QRadioButton('Ubuntu',self)
        self.radiobutton.move(2,2)
        self.radiobutton.clicked.connect(self.click)
        self.radiobutton1=QRadioButton('Debian',self)
        self.radiobutton1.move(2,22)
        self.radiobutton1.setChecked(True)
        self.radiobutton1.clicked.connect(self.click)
        self.show()
    def click(self):
        if self.radiobutton.isChecked():
            self.radiobutton.setText('Android')
            print self.radiobutton.text()
        elif self.radiobutton1.isChecked():
            print 'Debian selected: Debian'
        else:
            pass
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
    app.exec_()
```

Programın açılışında self.radiobutton1.setChecked(True) ifadəsi sayəsində radiobutton1 -in seçili olduğunu gördük.

QCheckBox Widget

Klas radiobuttona bənzəyir

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.setWindowTitle('CheckBox Widget')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.setGeometry(400,400,400,400)
        self.palette=QPalette()
        self.palette.setColor(QPalette.Background,Qt.black)
        self.setPalette(self.palette)
        self.checkbox1=QCheckBox('Tkinter',self)
        self.checkbox1.move(0,20)
        self.checkbox2=QCheckBox('PyQt',self)
        self.checkbox2.move(0,0)
        self.checkbox3=QCheckBox('wxPython',self)
        self.checkbox3.move(0,40)
        self.checkbox3.setTristate(False)
        self.show()
    def i(self):
        print 'hello'
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
    app.exec_()
```

Ekran görünüşü



klas üçün state metodları

checked və unchecked

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.setWindowTitle('CheckBox Widget')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.setGeometry(400,400,400,400)
        self.palette=QPalette()
        self.palette.setColor(QPalette.Background,Qt.black)
        self.setPalette(self.palette)
        self.checkbox=QCheckBox('Tkinter',self)
        self.checkbox.move(0,20)
```

```
        self.checkbox.stateChanged.connect(self.i)
        self.show()
    def i(self):
        if self.checkbox.text()=='Tkinter':
            if self.checkbox.isChecked()==True:
                print u'Siz qutunu seçdiniz'
            else:
                print 'qutu secili deyil'
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
    app.exec_()
```

def i funksiyası daxilində istifadəçinin qutunu seçməklə 'Siz qutunu seçdiniz' mesajı,əksinə isə 'qutu secili deyil' mesajı verdik.İstifadə olunan stateChanged metodunu clicked və ya pressed metodları ilə dəyişə bilərsiniz.metodumuz sadəcə mausdan gələn məlumata cavab verir.əgər setChecked() metoduna True versək proqram açılışında hər hansı bir mesajın olmadığını görəcəyik,amma qutu seçili olacaq

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.setWindowTitle('CheckBox Widget')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.setGeometry(400,400,400,400)
        self.palette=QPalette()
        self.palette.setColor(QPalette.Background,Qt.black)
        self.setPalette(self.palette)
        self.checkbox=QCheckBox('Tkinter',self)
        #və ya self.checkbox.setText('Tkinter')
        self.checkbox.move(0,20)
        self.checkbox.clicked.connect(self.i)
        self.checkbox.setChecked(True)
        self.show()
    def i(self):
        if self.checkbox.text()=='Tkinter':
            if self.checkbox.isChecked()==True:
                print u'Siz qutunu seçdiniz'
```

Qutunun seçili olmasını təmin etdik

```
        else:
            print 'qutu secili deyil'
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
    app.exec_()
```

Kodlarımız arasında Demək olarki metodların bir neçəsini istifadə etdik

Bunlardan başqa setTristate metodu da varki qutunu istifadəsiz halda (passiv deyil) görünməsini təmin edir.

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.setWindowTitle('CheckBox Widget')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.setGeometry(400,400,400,400)
        self.palette=QPalette()
        self.palette.setColor(QPalette.Background,Qt.black)
        self.setPalette(self.palette)
        self.checkbox=QCheckBox('Tkinter',self)
        self.checkbox.move(0,20)
        self.checkbox.clicked.connect(self.i)
        self.checkbox.setChecked(True)
        self.checkbox.setTristate(True)
        self.show()
    def i(self):
      if self.checkbox.text()=='Tkinter':
        if self.checkbox.isChecked()==True:
            print u'Siz qutunu seçdiniz'
        else:
            print 'qutu secili deyil'
if __name__ == '__main__':
    app = QApplication([])
```

```
    gui = window()
    app.exec_()
```

QComboBox Widget

qutu daxilində ifadələri list şəklində görünməsini,eləcədə hər bir ifadəyə bir funksionallıq verilməsini təmin edir.

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.setWindowTitle('ComboBox Widget')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.setGeometry(400,400,400,400)
        self.palette=QPalette()
        self.palette.setColor(QPalette.Background,Qt.black)
        self.setPalette(self.palette)
        self.label=QLabel('Combobox',self)
        self.label.move(50,50)
        self.combobox=QComboBox(self)
        self.combobox.move(150,50)
        self.show()
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
    app.exec_()
```

Kodlarımız arasına klası əlavə etdik.Açılan pəncərədə qutunun boş olduğuna görə bəzi ifadələr əlavə edək.Bunun üçün klas,bizə iki yolla ifadə əlavə etməyi təklif edir.
addItem və addItems.Aralarında fərq isə biri sadəcə tək ifadəni,digəri list şəklində əlavə edir.Metodlar misallardan aydın olacaq

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.setWindowTitle('ComboBox Widget')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.setGeometry(400,400,400,400)
        self.palette=QPalette()
        self.palette.setColor(QPalette.Background,Qt.black)
        self.setPalette(self.palette)
        self.label=QLabel('Combobox',self)
        self.label.move(50,50)
        self.combobox=QComboBox(self)
        self.combobox.addItem('Python')
        self.combobox.addItems(['Java','C++','HTML5'])
        self.combobox.move(150,50)
        self.show()
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
    app.exec_()
```

Ekran görünüşü

Kodlarımız arasında hər iki metoddan istifadə etdik.metodlar ardıcıllığa uyğun olaraq ifadələri qutuya əlavə etdi.

Bundan əlavə addİtem metodu listlərə aid olduğundan biz sorted funksiyasından istifadə edə bilərik.Funksiya ifadələri əlifba sırası ilə düzülüşünü təşkil edir.

self.combobox.addItems(sorted(['Rubby Rails','JQuerry','Java','C++','Avira']))

clear() metodu

Metod qutu daxilində ifadələrin bütünlükdə silinməsini təşkil edir.Pəncərəyə bir dümə əlavə edib və düyməni sıxdıqda qutu daxilində ifadələrin silinməsini(Clear() metodu vasitəsilə) tətbiq edək.Bunun üçün ayrıca bir funksiya daxilində kodlarımızı yazaq.

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.setWindowTitle('ComboBox Widget')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.setGeometry(400,400,400,400)
        self.palette=QPalette()
        self.palette.setColor(QPalette.Background,Qt.black)
        self.setPalette(self.palette)
        self.label=QLabel('Combobox',self)
        self.label.move(50,50)
        self.combobox=QComboBox(self)
1.  self.combobox.addItem('Python')
2.  self.combobox.addItems(['Java','C++','HTML5'])
3.  self.combobox.move(150,50)
4.  self.button=QPushButton('delete ',self)
5.  self.button.move(250,50)
```

```
6.      self.button.connect(self.button,SIGNAL('clicked()'),self.clean)

                    self.show()
    def clean(self):
        self.combobox.clear()
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
    app.exec_()
```

1-ci və 2-ci sətridə addİtem və addİtems metodlarından istifadə edərək ifadələr əlavə etdik.6-cı sətirdə isə pəncərə daxilində olan düyməni def clean funksiyası ilə əlaqələndirdik.Funksiya daxilində isə clear() metdoundan istifadə edərək qutu daxilindəki(combobox) ifadələri sildik.

Digər metodları bərabər işlədib açıqlamalar verək

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.setWindowTitle('ComboBox Widget')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.setGeometry(400,400,400,400)
        self.palette=QPalette()
        self.palette.setColor(QPalette.Background,Qt.black)
        self.setPalette(self.palette)
        self.label=QLabel('Combobox',self)
        self.label.move(50,50)
        self.combobox=QComboBox(self)
        self.combobox.addItem('Python')
        self.combobox.addItems(['Java','C++','HTML5','CSS'])
        self.combobox.move(150,50)
        self.combobox.currentIndexChanged.connect(self.choose)
        self.show()
    def choose(self):
```

```
        print u'Qutuda ümumi %s dil var.'%self.combobox.count()
        print u'Siz sıra nömrəsi {} olan {} dilini
seçdiniz.'.format(self.combobox.currentIndex(),self.combobox.currentText())
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
    app.exec_()
```

Python shell- də görünüşü

```
>>>
Qutuda ümumi 5 dil var.
Siz sıra nömrəsi 3 olan HTML5 dilini seçdiniz.
Qutuda ümumi 5 dil var.
Siz sıra nömrəsi 4 olan CSS dilini seçdiniz.
Qutuda ümumi 5 dil var.
Siz sıra nömrəsi 0 olan Python dilini seçdiniz.
```

.....

self.combobox.currentIndexChanged.connect ifadəsi Sİgnal metodu sayılır.Qutu daxilindəki hər hansı bir ifadəyə sıxdıqda bizə def choose funksiyasını çağırır.
Ayrıca currentText metodu bizə seçdiyimiz ifadəni yalnızca göstərir.Digəri currentİndex isə sadəcə olaraq seçdiyimiz ifadənin sıra sayıdır.Python bir list daxilində ifadələri 0-dan başlayaraq saydığından sıralamada 0-ədədini də görəcəyik.count() metodu isə qutu daxilində ümumi ifadə sayını təyin edir.

Mövzuya dair daha bir metoddan istifadə edərək proqram yazaq

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.setWindowTitle('ComboBox Widget')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.setGeometry(400,400,400,400)
        self.palette=QPalette()
        self.palette.setColor(QPalette.Background,Qt.black)
```

```
        self.setPalette(self.palette)
        self.label=QLabel('Combobox',self)
        self.label.move(50,50)
        self.combobox=QComboBox(self)
        self.combobox.addItem('Python')
        self.combobox.addItems(['Java','C++','HTML5','CSS'])
        self.combobox.move(150,50)
        self.combobox.highlighted.connect(self.choose)
        self.show()
    def choose(self,index):
        if index == self.combobox.currentIndex():
            print 'Siz {} dilini seçdiniz'.format(self.combobox.currentText())
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
    app.exec_()
```

Kodlarımız arasında yeni Signal metodu highlighted istifadə etdik.Metod,mausu ifadələrin üzərinə gətirdikdə İfadənin index nömrəsini tutur.Və bizdə həmin index nömrəsinə görə ifadənin sıra nömrəsi deyil currentText metodu ilə adını yazmağı əmr etdik.

Və ya sadəcə index nömrəsini çap edək

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.setWindowTitle('ComboBox Widget')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.setGeometry(400,400,400,400)
        self.palette=QPalette()
        self.palette.setColor(QPalette.Background,Qt.black)
        self.setPalette(self.palette)
        self.label=QLabel('Combobox',self)
        self.label.move(50,50)
        self.combobox=QComboBox(self)
        self.combobox.addItem('Python')
        self.combobox.addItems(['Java','C++','HTML5','CSS'])
        self.combobox.move(150,50)
```

```
        self.combobox.highlighted.connect(self.choose)
        self.show()
    def choose(self,index):
        print 'sıra nömrəsi {} olan dili seçdiniz'.format(index)
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
    app.exec_()
```

Klasa dair daha bir proqram yazaq

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
from pyqterm import TerminalWidget
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.setWindowTitle('ComboBox Widget')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.setGeometry(400,400,700,700)
        self.palette=QPalette()
        self.palette.setColor(QPalette.Background,Qt.gray)
        self.setPalette(self.palette)
        self.label=QLabel('Combobox',self)
        self.label.move(50,50)
        self.combobox=QComboBox(self)
        self.combobox.addItem('Css')
        self.combobox.addItems(['Java','C++','HTML5','python'])
        self.combobox.move(150,50)
        self.combobox.currentIndexChanged.connect(self.choose)
        self.show()
    def choose(self):
        if  self.combobox.currentText()=='python':
            self.term=TerminalWidget(self)
            self.term.setGeometry(30,90,650,500)
            self.term.zoom_out()
            self.term.zoom_out()
            self.term.execute(command='python')
            self.term.show()
if __name__ == '__main__':
    app = QApplication([])
```

```
    gui = window()
    app.exec_()
```

Qutu daxilində əgər istifadəçi python ifadəsini seçərsə,ana pəncərə daxilində terminaldan python2-ni çağıracaq.Funksiya daxilində pyqterm modulundan istifadə etdim.İnternetdə araşdırdığım qədəriylə normal bir paket deyil,hətda normal çalışmır,metod və funksiyaları çox azdır.fronted faylına daxil olub özünüz də araşdıra bilərsiniz.Hər halda məqsədim sizə seçilmiş ifadə vastəsilə funksiyanın çağırılması idi.Bu arada pyqterm modulunu yükləmək üçün https://pypi.python.org/pypi/pyqterm ünvanından istifadə edə bilərsiniz.Modul yüklü olmasa təbiki yuxarıdakı proqram xəta verəcəkdir.Hal-hazırda 2 versiyası üzərindədir.

Css atributları ilə qutunun rənglərini tənzimləmək olar

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.setWindowTitle('ComboBox Widget')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.setGeometry(400,400,700,700)
        self.palette=QPalette()
        self.palette.setColor(QPalette.Background,Qt.gray)
        self.setPalette(self.palette)
        self.label=QLabel('Combobox',self)
        self.label.move(50,50)
        self.combobox=QComboBox(self)
        self.combobox.addItems(sorted(['Eclipse','C++','Rubby Rails','terminal']))
        self.combobox.setStyleSheet('QComboBox{background-color: darkgray;\
                                selection-background-color: gray;\
                                color: black;}')
        self.combobox.move(150,50)
        self.show()
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
```

```
    app.exec_()
```

Kodlarımız arasına setStyleSheet əlavə etməklə qutunu css kodlama dili ilə bəzədik.
Css kodları ilə pəncərənin də arxa plan rəngini dəyişə bilərik

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.setWindowTitle('ComboBox Widget')
        self.setWindowIcon(QIcon('icon.png'))
```

Arxa plan rəngi.Və ya red,black,gray yazaraq da dəyişə bilərsiniz

```
            self.setGeometry(400,400,700,700)
        self.setStyleSheet("background-color:#1A2C3E;")
        self.label=QLabel('Combobox',self)
        self.label.move(50,50)
        self.combobox=QComboBox(self)
        self.combobox.addItems(sorted(['Eclipse','C++','Rubby Rails','terminal']))
        self.combobox.setStyleSheet('QComboBox{background-color: darkgray;\
                                            selection-background-color: gray;\
                                            color: black;}')
        self.combobox.move(150,50)
        self.show()
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
    app.exec_()
```

QBoxLayout Class -klası

Klas horizontal və vertikal istiqamətdə yerləşdirməni təşkil edir.klası tətbiq etmək üçün addWidget addStrech və addLayout metodlarından istifadə olunur

Aşağıda yazacağımız kodlarda iki düyməni vertikal istiqamətdə yerləşdirək

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.setWindowTitle('QBoxLayout class')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.move(100,200)
        self.setStyleSheet("background-color:gray;")
        self.button=QPushButton('vbox',self)
        self.button1=QPushButton('vbox1',self)
        self.vbox=QVBoxLayout() # vertikal istiqamətdə V -ifadəsi
        self.vbox.addWidget(self.button)
        self.vbox.addWidget(self.button1)
        self.setLayout(self.vbox)
        self.show()
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
    app.exec_()
```

Ilk əvvəl iki ədəd düymə təyin etdik,daha sonra vbox dəyişəninə QVBoxLayout () klasını tətbiq etdik.Qeyd edimki QboxLayout iki parametr alır V -vertikal və H-horizontal.əgər bu baş hərfləri qeyd etməzsəniz xəta alacaqsınız.Və sonra addWidget metodu ilə düymələri klasa tətbiq etdik.Son olaraq yazdığımız setLayout ifadəsi ilə ana pəncərəyə hər iki düyməni əlavə edirik.Proqramın açılışı zamanı gördüyümüz kimi iki ədəd düymə vertikal istiqamətdə yerləşdirilmişdir.Biz kodlarımızda biz yerləşdirmə metodlarından düymə üçün istifadə etmədik.Bu üsul tək düymə üçün deyil,QLabel ,QLineEdit və s istifadə edə bilərsiniz.Düymələri horizontal istiqamətdə düzmək üçün isə

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.setWindowTitle('QBoxLayout class')
```

```
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.move(100,200)
        self.setStyleSheet("background-color:gray;")
        self.button=QPushButton('hbox',self)
        self.button1=QPushButton('hbox1',self)
        self.hbox=QHBoxLayout() # horizontal istiqamətdə H -ifadəsi
        self.hbox.addWidget(self.button)
        self.hbox.addWidget(self.button1)
        self.setLayout(self.hbox)
        self.show()
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
    app.exec_()
```

Bundan başqa addStretch() metodu da varki,düymələr arasında məsafə yaradır.Və bu məsafə,pəncərənin dinamik ölçüsünü dəyişdikdə düymələr arasında məsafələr də dəyişir.

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.setWindowTitle('QBoxLayout class')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.move(100,200)
        self.setStyleSheet("background-color:gray;")
        self.button=QPushButton('hbox',self)
        self.button1=QPushButton('hbox1',self)
        self.hbox=QHBoxLayout() # vertikal istiqamətdə V -ifadəsi
        self.hbox.addWidget(self.button)
        self.hbox.addStretch()
        self.hbox.addWidget(self.button1)
        self.setLayout(self.hbox)
        self.show()
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
    app.exec_()
```

Ekran görünüşü

ilkin görünüş

ölçünün dəyişilməsi

Görüntüdən də aydın olurki pəncərə ölçüsünü dəyişdikdə addStrech metodu məsafəni qorumur.

QGridLayout Class -klası

klas sətir və sütunlarla verilənləri yerləşdirir.

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.setWindowTitle('QBoxLayout class')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.move(100,200)
        self.setStyleSheet("background-color:gray;")
        self.grid=QGridLayout(self)
        for i in range(3):
            for v in range(1,6):
                self.grid.addWidget(QPushButton(b),i,v)
        self.setLayout(self.grid)
        self.show()
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
    app.exec_()
```

Kodlarımız arasında for i in range(3) ifadəsi ilə düymələri 3-sətirdən ibarət olmasını,for v in range(1,6): ifadəsilə isə hər sətirdə 5 ədəd düymənin olmasını tənzimlədik.klasın ümumi modeli addWidget(QWidget, int r, int c) şəklindədir

int r -rowspan(sətir)
int c-columnspan(sıra(sütun))

və ya

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.setWindowTitle('QBoxLayout class')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.setStyleSheet("background-color:#121E2A;")
        self.grid=QGridLayout()
        self.setLayout(self.grid)
        list=[\
            '1','2','3','/','<-',
            '4','5','6','*','C',
            '7','8','9','+','i',
            '0','.','=','-','exit']
        post=[(i,j) for i in range(5) for j in range(5)]
        for show, number in zip(post, list):
            if number == ' ':
                continue
            self.button = QPushButton(number)
            self.grid.addWidget(self.button, *show)
        self.show()
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
    app.exec_()
```



kimi yazaraq hesab maşını üçün qrafik görünüşü hazırlaya bilərik.

```
# -*-coding: utf-8 -*-
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        self.setWindowTitle('QBoxLayout class')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.setStyleSheet("background-color:#121E2A;")
        self.grid=QGridLayout()
        self.setLayout(self.grid)
        self.monitor=QLCDNumber()
        self.monitor.setDigitCount(30)
        self.monitor.setStyleSheet("background-color:white;")
        #self.line=QLineEdit()
        list=[\
            '1','2','3','/','<-',
            '4','5','6','*','C',
            '7','8','9','+','i',
            '0','.','=','-','Quit']
        post=[(i,j) for i in range(5) for j in range(5)]
        for show, number in zip(post, list):
            if number == '':
                continue
            self.grid.addWidget(self.monitor,0,5)
            self.button=QPushButton(number)
            self.grid.addWidget(self.button,*show)
            self.show()
if __name__ == '__main__':
    app = QApplication([])
    gui = window()
    app.exec_()
```

Rəqəm sayını 30-sayda tənzimləyirik

LCD monitorun 0-cı sətirdən 5-ci sırada yer alır

QLCDNumber əvəzinə QLineEdit klasını da istifadə edə bilərdik.Və LCD monitoru 30 digit sayda təmin etdik.Arxa plan rəngini isə white-ağ olaraq dəyişdik.QGridLayout- addWidget metodundan gördüyümüz kimi sıra və sütunlarda verilənləri yerləşdirir.Buttonların yerini isə dəyişə bilmərik,çünki range funksiyası daxilində artıq sətir və sütunları qeyd etmişik.və Başlanğıc

kimi klas,verilənləri 0-dan tənzimləyir.

Ekran görünüşü



Hesab maşını üçün digər alternativ yola baxaq
Bunun üçün kodlarımızı yazaq

```
# -*-coding: utf-8 -*-
from __future__ import division
from PyQt4.QtGui import*
from PyQt4.QtCore import*
import sys
class window(QWidget):
    def __init__(self, parent=None):
        super(window, self).__init__(parent)
        #window  setting-------------------------
        self.setWindowTitle('QBoxLayout class')
        self.setWindowIcon(QIcon('icon.png'))
        self.setStyleSheet("background-color:#121E2A;")
        self.grid=QGridLayout()
        self.setLayout(self.grid)
        self.line=QLineEdit()
        self.line.setMaxLength(17)
        self.line.setStyleSheet("background-color:darkgray;")
        self.line.setAlignment(Qt.AlignRight)
        #-----------------------------------------------------
```

Yuxarıdakı kodlarımızda pəncərənin görünüşü,eləcədə başlıq və arxa plan

rəngini dəyişdik.Kodlarımız arasında bizə yad olan yeni metod və funksiya yoxdur.İndidə pəncərəyə bəzi ehtiyac düymələri tətbiq edək

```
        button_plus=QPushButton('+')
        button_minus=QPushButton('-')
        button_mult=QPushButton('*')
        button_div=QPushButton('/')
        button_equal=QPushButton('=')
        button_equal.clicked.connect(self.result)
        button_clear=QPushButton('CE')
        button_clear.clicked.connect(self.clean)
        button_backsps=QPushButton('Backspace')
        button_backsps.setStyleSheet("background-color:black;")
        button_backsps.clicked.connect(self.back)
        button_exit=QPushButton('Quit')
        button_exit.clicked.connect(self.quiting)
```

Düymələri,funksiyalarına görə adlandırdıq.Daha sonra plus minus vurma bölmə işarələrini bir list daxilinə tətbiq edib,addWidget metodu vasitəsilə pəncərəyə yerləşdirək(sıra və sütun üzrə)

```
list_operator=[\
            button_plus,button_minus,
            button_mult,button_div,]
        for i in list_operator:
            i.clicked.connect(self.opert)

        list=[\
            '1','2','3',
            '4','5','6',
            '7','8','9',
            '0','.']
        post=[(i,v) for i in range(5) for v in range(5)]
        for show, number in zip(post, list):
            if number == '':
                continue
            self.grid.addWidget(self.line,0,5)
            self.button=QPushButton(number)
            self.button.setStyleSheet("background-color:#1A2938;")
            self.button.clicked.connect(self.operation)
            self.grid.addWidget(self.button,*show)
            self.grid.addWidget(button_plus,2,1)
            self.grid.addWidget(button_minus,2,2)
```

```
        self.grid.addWidget(button_mult,2,3)
        self.grid.addWidget(button_div,2,4)
        self.grid.addWidget(button_equal,3,4)
        self.grid.addWidget(button_clear,1,5)
        self.grid.addWidget(button_backsps,2,5)
        self.grid.addWidget(button_exit,3,5)
      self.show()
```

self.grid.addWidget(button_plus,2,1) ifadəsi daxilində yazdığımız 2 və 1 ədədləri sıra və sütunları göstərir.model olaraq addWidget(widget,int row,int column) formasındadırYəni 2,ikinci sətir 1-isə birinci sütunu təmsil edir.Daha aydın şəkildə
cədvəllə ifadə edək.



sütun0	sütun1	sütun2	sütun3
Button 1	Button 2	Button 3	Button 4
Button 5	Button 6	Button 7	Button 8

Proqramın ekran görünüşü aşağıdakı şəkildədir

Aşağıdakı kodlarımızda isə hər düyməyə sıxanda ekranda görünməsini təşkil etdik

Bunun üçün sender metodundan istifadə edəcəyik.Sender metodu düymənin

sıxıldığında,düyməyə verdiyiniz ifadəni oxuyur.Biz self.button.clicked.connect(self.operation) ifadəsini yazmaqla operation funksiyasını çağırırır.İndidə baxaq bu operation funksiyası nəyi yerinə yetirir.

```
def operation(self):
        sender=self.sender()
        if False==False:
            self.line.setText(self.line.text()+sender.text())
```

kodlarımız daxilində sender metodunu global verilən kimi self.sender() şəklində yazdıq.Daha sonra monitorun mətn görünüşünü sender metodunun text() parametrindən istifadə edərək üzərinə əvvəlki ifadəni gəlməklə tətbiq etdik.Çünki biz self.line.text ifadəsini istifadə etməsəydik.hər dəfə düymələrə sıxdıqda özündən əvvəlki ifadələr ayrı formada qalacaqdır.
Və nəticədə result funksiyası daxilinə pythonun eval funksiyasını tətbiq edirik.Ən başda bildiyimiz kimi from __future__ import division metodunu istifadə etməklə istifadəçiyə dəqiq cavabları verməyi təmin edirik.

```
def result(self):
        try:
            i=self.line.text()
            self.line.clear()
            self.line.setText(str(eval(str(i))))
        except NameError:
            self.line.clear()
            self.line.setText('please write only integer')
        except SyntaxError:
            self.line.clear()

        else:
            self.line.setText(sender.text())
```

Və kodları xətalarla birgə istifadə etmək üçün try blokuna alaraq NameError SyntaxError kimi xətalardan qaçırıq.Bu arada qeyd edimki funksiyaları self.show() metodundan sonra yazın əks halda xəta alacaqsınız.Və aşağıdakı funksiyaların da nəyi təyin etdiyi bizə qaranlıq qalmayacaq

```
    def opert(self):
        sender=self.sender()
        i=sender.text()
        if False==False:
```

```
            self.line.setText(self.line.text()+i)
```

opert funksiyasının çalışması üçün list_operator=[\
button_plus,button_minus,
button_mult,button_div,]
daxilindəki ifadələri bir i dəyişəninə atıb `for i in list_operator:`
`i.clicked.connect(self.opert)`
düymə kimi fəaliyyətini tənzimləyirik.

```
    def clean(self):
